# Bəxt və Zəhmət barədə

Güclülərin bəxti hər zaman gətirir. Bəxt güclüləri və ya zəhməti sevir. Bu yanaşma bizi daha çox işləməyə və tez nailllətlər əldə etməyə sövq edir. Çox zaman belə fikir formalaşır ki, kimlərinsə bəxti gətirir və ya onların uğurunda əsas amil bəxt amilidir. Biz bu fkirlə heç razı deyilik və hesab edirik ki, yalnız zəhmətsevər insanların bəxti daimi formada gətirə bilər. Niyə biz belə düşünürük?

lkin Manafov video blogda bəxt – şans amili barədə fikirlərini bölüşür. Güclülərin bəxti hər zaman gətirir. Güclü olmaq üçün nə lazımdır? Güclü biznes, iş qurmaq üçün nələrə diqqət etməliyik? Öz üzərində işləyən, sistemli təkmilləşən, səbrli olan insanların bəxti hər zaman gətirir.

İnsanlar çox zaman öz tənbəlliklərinin nəticələrini bəxt amili ilə bağlamaq istəyirlər. Filan şey niyə edə bilmədin? Bəxtim gətirmədi… cavabı əlbəttə çox sadədir və məsuliyyətdən rahat yayınmaq imkanı yaradır.

Həyat hər bir insanın bəxti və ya şansı gətirə bilər. Kimlərsə bundan mükəmməl istifadə edir, kimlərsə onun qarşısında açılan imkanları itirir, düzgün dəyərləndirə bilmir. Səbrli olmaq, dözmək və konkret işin üzərində işləyən insanların bəxti hər zaman gətirir.

ƏLAVƏ OXUMAQ ÜÇÜN:

- İşdə stres və ya Rahat olun
- bir keysin sirləri